İNSAN SƏVİYYƏSİ

(poema-düşüncələr)

Salam, Kainat!
Salam, ey böyük həyat!
ey sükutla dolu
səyyarələr akvariumu.
Pıçıltımı eşidib
Məndən soruşma ki,
"haqq varmı?"
Məni görə bilmirsən deyə
Boylanma öz dibindən dərinə,
göyündən yuxarı göyə.
Mən o qədər kiçiyəm
zərrələr arasından gözlərin məni
tapıb yığa bilmir,
O biri o qədər böyükdü
kainatın da göyünə
sığa bilmir.
Görə bilməyəndən sonra
sənə nə fərqi var
kiçikdi, ya böyükdü.
İkisi də götürə bilmədiyin yükdü.
Qaranlığın sükutundan üzən
yaşıl bir adadı səyyarəm.
Kainatın böyüklüyünə qərq olan
bir səsdi, sədadı səyyarəm.
Milyon, milyon günəşlər yanır
Ətrafında səyyarələr
qızınır, üzür, dolanır.
Günəşləri kimdi alışdıran?
Kainat ulduzlar burulğanıdı,
Bu qazanı kimdi qarışdıran?
Mən yer kürəsində
zərrədən kiçiyəm.
Məndən də kiçikləri var qat-qat.
Bu gecə yarı
məni dəli saymasın deyə yanımda arvad,

Sənin lə ürəyimdə danışıram.
Eşidərsənmi məni, kainat?!
Deyəcəklər "bu da ağıllı" necə eşitsin,
kainat ürəyinin səsini.
Mən kainatın qaranlıq qüssəsini
eşidirəm.
Ulduzların işığının səsini eşidirəm.
Fəzanın nəhəng sükutunun
zümzüməsini eşidirəm.
Ürəyimin səsi də qoşulur o səslər dalğasına
uçur o sonsuzluğa gedən sona...
Eşidirəm
mənə gülən var,
özü yaman gündə üstümə gələn var.
– Ay rəhmətliyin oğlu
bağıra-bağıra qalmışam
səsimi eşitmirlər evlər idarəsində.
Eh... Sən də...
tutulub evimdə ayaqyolu.
– Günah özündədi!
Nəyi çeynəməmiş udmuşdun,
ay zalım oğlu?
Mən kainata uçmaq,
ulduzlar arasında üzmək istəyirəm,
sən ayağımdan tutub dartırsan aşağı.
Arvad böyrümə dürtmə vurur
– Ay kişi göylərə köçmüsən?
Deyir – əlini kəsib Günayın uşağı,
A kişi, bir dəqiqə en aşağı.
İndicə mələk idim,
arvad qanadlarımı qayçıladı.
Romantikanı reallıq qamçıladı.

* * *

Göyün ulduz göz yaşı var,
Göyün də göy gülüşü var.

Hər səyyarə ailəsinin
öz çırağı-günəşi var.
Hər ailədə, hər ulduzun,
öz dolanmaq yolu var.
Hər səyyarənin öz peyki var
hər peykin o səhnədə
öz rolu var.
Bu kainat ailələrdi
çadır-çadır.
Kainatda qaçqın olmur,
hər kəsə öz yeri çatır,
hər kəsə öz yurdu çatır.
Səyyarələr bir-birinin
hüduduna keçə bilməz.
Səyyarələr bir-birinin
işıq payın içə bilməz.
qanun-qayda.
Hamı birdir, bir ailədir,
hər kəs ayrı-ayrı ada.
Hər kəs təkdi, müqəddəsdi.
Hamı birdi kainatda,
bir ahəngdi, bircə səsdi.
Ulduzların zaman boyu hərəkəti,
nizamlı bir axını var.
Onlardan da öz həddini aşan olur.
Ona görə göydə
ulduz yığını var.
Yağan yağır, uçan uçur,
Öz yerində qalan olmur,
hamı haqqa doğru qaçır.

* * *

Allahsız yaşamaq mümkün deyil,
Allahsızın ömrü, günü də
bir gün deyil.
Uşaq vaxtı ata, ana üstünə

qaçdığı tək
Bir qaçan yeri, ümid yeri
olsun gərək
İnsanın.
Çətinlikdən, əməlindən,
həyatından usanan,
Ağlasın-sırtqasın, yalvarsın.
Bu hərislik
oldu bütpərəstlik.
Hərə öz Allahını yaratdı.
Kimi Allah yaradıb satdı.
Kimi də Allahını aldı,
evin bir küncünə atdı.
Kasıbın Allahı taxtadan,
o birininki gildən,
birinin Allahı da misdən.
Bunlar hamısı eyni vahimədən,
ümiddən, məhəbbətdən,
eyni hissdən
yaranmışdı.
Çörəyi çətin çıxanda,
bir-birinin evini yıxanda
lap elə-belə darıxanda
Qaçırdı üstünə Allahın insanı.
Taxtanın, gilin, misin ürəyi yumşalırdı,
Günahını yuyurdu, könlünü alırdı
İnsanın.
Allahsızlıq eşqi yaratdı Musanı
İsanı.
Dandılar Odları, inancları,
büt Allahları.
Geyimli, lüt Allahları.
Rədd olsun Allahlar – dedilər!
Allah var! – dedilər –
Təkdi, uludu, müqəddəsdi,
görünməzdi.
Allah qeybdən gələn səsdi,

onu elçisi eşidir ancaq.
Bu bütlər,
Allahlar,
oyuncaqdı, oyuncaq.
Asimana bax,
ulduzlardan yuxarıdadı haqq;
Musanı didərgin saldılar,
çarmıxa çəkdilər İsanı.
Eşq olsun İnsana
Allah özünə çağırır İnsanı.
Məhəmmədi öldürdülər,
Kəsdilər nəvələrinin başını.
İndi min üç yüz ildi
tökürlər göz yaşlarını.
Ümməti qanı yumaq istəyir əlindən,
Bir yandan da
yenə əl çəkmir öz əməlindən.
haqq yolunda hər kəs
bir dəfə də olsa
haqsız olur.
Allah yolunda hər kəs
bir dəfə
Allahsız olur.

* * *

İnsan məhəbbətin işığı,
Kainatın yaraşığı,
Yer kürəsinə
səmadan düşüb aşağı,
Asiman uşağı İnsan
İnsanın xəmiri yerdən deyil,
Hamısı İnsandı, hamısı bir dən deyil.
Sarıdı, qaradı, ağdı.
Milyon ildi gözləyirik
Qaynayıb qarışacaqdı.
Min illər keçir

Məzar yerləri unudulur.
Şumlanır, əkilir.
Çörəyi bir torpaqdan çıxır,
Suyu bir quyudan çəkilir,
Yenə dünyaya,
qara qara gəlir, ağ da ağ gəlir.
Kainat genişdi.
Bu qaralar, sarılar,
Yer üzünə Allahın əlindən
Sürüşüb düşdü.
Yaradan özü bilir
bunların xəmirini
Hansı səyyarələrdən götürmüşdü.
İnsan Allahın dodağından düşən
işıqlı bir kəlmədi.
Kainatdan ulduz kimi axıb,
İnsan yer üzünə gəlmədi.
Təbiət onun öhdəsindən gəlmədi.
İnsan təbiəti çaldı, çapdı, taladı.
Ağacını qaladı,
heyvanını parçaladı.
İnsan təbiətə
göydən gələn bəladı.
Bu torpaqdan yarananlar
təbiətlə ana-baladı,
Meşəyə sığınan pələng kimi,
Suya sığınan bir balıq kimi,
Budağa sığınan bir quş kimi.
İnsan təbiət üstündən keçir qarğış kimi,
Ayağı altındakılar ölü qalır,
Ətrafındakı ağacların külü qalır.
Quşlar şişində gedir
Yeməlilər dişində gedir,
Dovşanlar minaya düşür partlayır,
Canavar tələyə düşür ulayır,
Pələng qəfəsdə tula kimi quyruq bulayır.

İnsan keçib gedir yer üzündən
Bəlkə yenidən qayıdacaq kainata
sakitlik çökəcək həyata...
Yaxşı, qonaqsan!
İnsan abırlı qonaq olar.
Uçmağı öyrənmisən,
hara desən uçmaq olar.
Adam da onu yaradanın üzünə ağ olar?
Allah yaradıb səni də,
Yer kürəsini də.
Yer kürəsinin də öz doğma adamı var.
Gözdən irağa qaçıb bələləri.
Afrika cəngəlliklərində gizlənir
qəbilələri.
Dırmanıb ən uca dağlara
Nəhəngi, avamı.
Olub qar adamı.
İzini görəndə Adəm ovuna çıxmaq
istəyir hamı.
Bu İnsan deyil.
Dişi silahdı, ayağı, əli silahdı.
Yaratdığının ən kamili silahdı.
Min il qonşu olub yer üzündə
Yenə bir-birinə düşməndi.
Kim deyir ki, bunlar göydən düşmədi,
Bu xasiyyətlə bunlar göydən qovulandı.
İnsan olduğu da yalandı.
Bunlar iki zəhərli ilandı,
Qış yuxusundan oyanıb
Unudub özünün kimliyini, keçmişini.
Üz-üzə dayanıb
Qıcıyıb bir-birinə zəhərli dişini.
Allah cəza verib onlara
Bir-birinin gününü eyləyiblər qara...
Özlərini öyürlər,
Çörəyindən kəsib silaha verir,

Sonra döşlərinə döyürlər,
Allahın yaratdığı torpağa
"Mənimdi, mənimdi" – deyirlər.
Torpaq onları yeyir,
onlar da bir-birinin gələcəyini,
keçmişini yeyirlər,
Ayaqsız qalanların yerişini,
Atasız körpələrin gülüşünü,
Anaların yuxusunu oda qalayırsınız,
Siz çapıb talayırsınız.
Bu heç talamaq da deyil.
Quduz kimi bir-birinizi dalayırsınız.
Dayanın gəlmələr
artıq siz gəlib çatmısınız.
Allahın dediyi cəhənnəm budur
Onu siz özünüz yaratmısınız.
İlk günahkar kimi
özünüzü ora atmısınız.
Cəhənnəm odu öz içinizdəki
məkrdi, kindi.
İnsan-yaradan, quran yaşadandı,
bəs bunlar kimdi?..
...Amerikada da gəlmələrdi,
İnsan sözdürsə,
onlar da kəlmələrdi...
Ağalıq iddiasını
hər kəs soxub öz qarnına,
hamı qulluq eləyir
müqəddəs qanuna.
Qanun qarşısında
milliyyət, irqçilik yoxdu,
hamı İnsandı.
Ona görə işləyənlər toxdu,
yaşamaq asandı,
gördükləri də gündü.
deməli, belə də mümkündü.

* * *

Bir daşın üstündə oturmuşam
qarmaq atmışam dənizə
Dayanmışam dənizlə üz-üzə.
Qarmağıma balıq özü gəlir
Ən uzaq yerdən, üzə-üzə.
Balıq qarmağımıza düşməyə də bilərdi
düşür səbrimizə.
Küləklər dalğaları qovur,
Dalğalar sualtı axınları,
axınlar balıqları.
Zəncirbənd olub hamısı bir-birinə
Üstdən aşağı, altdan yuxarı.
Bir daşın üstündə oturub
Qarmaq atmışam dənizə.
Səyyarələrin üstündə oturub
Kainatdan qarmaq atıblar bizə.
Allah ulduzları qovur
ulduzlar taleyimizi,
taleyimiz bizi.
Mən də qarmağıma
bənd eləmişəm dənizi.
Səhər-səhər, bu dan üzü,
Hamımız bir ipdən asılıyıq,
Bu ip kimi nazikdi haqq
ipimizi kəsmə Allah...
Yaradan bir sapa düzüb
bütün kainatı.
Hamının həyatı
bir sapdan sallanır.
Udan çox sevinməsin
uduzanla bir sapa şərikdi.
Əslində aldadan
özü də aldanır.
Yazığın qisası yaman olur.

Udmaq üçün insan min oyundan çıxır
Axırda udan zaman olur.

* * *

Bu küləklər, mehlər
İnsan nəfəsidi.
Yaşayıb gedənlərin
harayıdı, səsidi.
Qayalar da daşa dönmüş səslərdi
qalıb bərkiyib qat-qat.
Səsdən yaranıb ilkin həyat.
Ol! – dedi,
Oldu hər şey.
Bir-birindən doğuldu hər şey.
Zəncir halqaları kimi törədi, artdı.
Yarananlar da başladı, yaratdı.
Dartdıqca uzandı, uzandıqca dartdı.
Hər şey nəhayətsiz elm oldu...
Allahın ən böyük kəşfi ölüm oldu.
Ondan sonra sualının
cavabını bildi.
Arxayınlaşıb görünməzə çəkildi.
Allahın bir zərrə ruhudu
bizi daşdıran, qaynadan
danışdıran, qaynadan
"Mən-mən" – demə, ey nadan.
Ruh yenə qayıdacaq sahibinə.
Yediklərinin hamballığı,
tullantısı qalacaq sənə,
Ruhun, beynin, əlin varkən
Yaxşı işin, elmin, əməlin olsun.
Xatirələrdə heykəlin olsun.
Zamanın ətəyində əlin olsun.
Verdiyini alır zaman
Ruh əmanətdi Allahdan.

Kainat ağzıbağlı sandıqdı.
Səyyarələr bəlkə də
Ruhların qoyub getdiyi
qəbiristanlıqdı,
Mənim min illərim
kainatda bir anlıqdır.
Səyyarələrin özləri göz qabağındadı,
yolları qaranlıqdı.
Eləsi var, hələ heç cana gəlməyib
Eləsi var, hələ ölməyib,
Zaman heç nəyi doğmaya, yada
bölməyib.
Zamanın karvanını çəkib gedir.
Bir sapa düzülüb hər şey
hamının zamanı gəlir bir-bir.
Səyyarələr də
əvvəl beşik olur,
sonra qəbir,
Səbir lazımdı,
Hər şey axırda düzəlir.
Allahın bir adı da
səbirdir, səbir.

* * *

Yaradan bütün yaratdıqlarının
sahibidi, yiyəsidi.
Allah yanında ən uca mərtəbə
İnsan səviyyəsidir.
O mərtəbəyə kimi
bütün ömürlər
yaşanır, keçilir,
İnsan olur, İnsan.
Bu mərtəbədə lap gözünü yumsan
Yenə görə bilərsən
Ağlının gözü ilə.

Ən keçilməz qapılardan
girə bilərsən
ağlının gözü ilə.
Bu mərtəbədə bir din var
sahibi Allahdı.
Bütün peyğəmbərlər din qardaşındı
Bir insan var Adəmdi
bütün millətlər
sənin qardaşındı.
Bu mərtəbədə bir ağan var
o da sənin öz başındı,
bəlkə belə demək günahdı,
amma günah olsa da sözüm haqdı.
Başının içindədi dostun, düşmənin.
Elmi dildə adını bilmirəm
Qafandakı beynin-düşünənin.
Odur ömrün boyu
başına ip salıb hərləyən.
Səni meymun kimi oynadan,
it kimi hürdürən,
at kimi yəhərləyən.
Axırda da cənnətə,
cəhənnəmə atan –
– Öz başındakı ağıldı,
ondan başqa
nə desələr nağıldı.
İnsan beyni –
kainatın eyni
modelidi.
Beyində mərkəzlər
kainatda ulduzlar
Onlar da mənasını bilmədiyimiz
sözlərdir, sözlər.
İnsan öz beynindəki
milyard ulduzlardan
beş-onunu tanıyır.

Soruşsan kainatdan da
beş-on ulduz adı sanayar.
Beynimizdə mərkəzlər
mürgülü, yuxulu,
Kainatda sükut içində yatır
ulduzların yolu.
İnsan beyni kainatdı,
gələcəyi uludu İnsan.
Neyləsin ki, özü hələ uşaqdı,
beyni yuxuludu İnsan.
Hansı nəhəngin beynidi kainat?
Bəlkə məndən o cavandı,
beynimizdən yenidi kainat.
Mən insanam beynimizdə kainatın
xəritəsi
Məni çağırır
uzaq ulduzların səsi.
İnsanı çağırır kainat
çağırır geri
Allah yanında
boş qalıb
İnsan mərtəbəsi,
boş qalıb
İnsan mərtəbəsi,
İnsan yeri.
Ona görə biz öz içimizdən
ucalmalıyıq.
Öz nadanlığımıza,
qalib gəlməli,
zəfər çalmalıyıq.
Beynimizin İnsan mərkəzi o,
yanmalıdı.
Oyanmalıdı!
günəş olub oynamalıdı
Onun nuruna
bütün varlıq boyanmalıdı.

O zaman yuxuda uçduqlarımız
çin olacaq.
İnsan göyərçin olacaq.
Ulduzlar mayak,
günəşlər ocaq.
Ömür zamanla uçacaq
yanaşı,
min illərlə ölçüləcək
insanın yaşı.
Yoxsa elə yaranandan
oturmuşdun cənnətdə
sənə daha nə gərək idi,
cənnət meyvəsi bəhanə idi,
Səni yaradana bəhanə idi.
Səni cənnətdən qovdu ki,
Desin get, Adəm, böyü, ucal, ol İnsan.
Yolunu gözləyir Yaradan,
Adəm, gözləyir ki, sən İnsan olasan.

ADİ HƏQİQƏTLƏR

Gördüklərim gözümün qərəlidi.
Görə bilmədiyimə yoxdur demirəm.
Onlar da görənlərə bəllidi.
Bu kainatda gördüyüm
bir zərrə də
mənə təsəllidi.
Bir ömrə bu da bəsdi.
İnsan ömrü ani bir səsdi.

* * *

Ülvi məhəbbətin ölməz sözü var.
Dönər əfsanəyə min illər yaşar.
Leylinin, Məcnunun oğlu-qızı var,

Nakam məhəbbətdən deyər, danışar.
Bütün cavanların üzünə qonur,
Bizi bu dünyaya gətirin deyir,
Bütün gözəllərin gözünə qonur,
Siz bu əfsanəni bitirin deyir.
Leylinin, Məcnunun oğlu, qızı var.
Min ildir yol gələn ruhdular onlar,
Qanana deməli dərdi, sözü var.
Görə bilməyənə yoxdular onlar.
Allah ən əvvəl
Leyli, Məcnun əfsanəsini yaradıb.
Əfsanədən xoşu gəlib
Sonra, insan, səni yaradıb.
Əvvəl sözdü...
Yaradan əvvəl bu sözü yapdı,
Az sonra Adəmlə Həvvanı
yoğurdu yapdı,
Onların içinə nur qoydu,
özünə oxşar yaratdı.
Onlar cütdü
həm də hər biri təkdi.
Görüş, ayrılıq
həyatın iki üzüdür,
ikisi də gərəkdi.
Biri dünyaya gəlişdi,
biri dünyadan gedişdi.
Onlar vüsal, hicran, sevinc, kədər deyil,
adi işdir.
Hər kəs doğulanda
ölümü ilə əkiz doğulur.
Görüşün içində doğulur hicran,
hicranın sonunda görüşdü.
Onların arasındakı vaxta
ömür deyirik,
Əslində bu ömür dediyimiz də
adi bir işdi.

Əsl ibadət
Yaradana oxşamaqdı.
Yaradıb yaşamaqdır.
Gözəl arzularını
gerçək elə sən,
Səhranı çiçək elə sən,
Fikrini qanadlandır,
Adsızı adlandır,
Piyadanı atlandır.
Balaca bir həyətin olsun,
Həyətin kainatı olsun.
Həyətində toyuq-cücən, mal-qaran,
atın, itin olsun.
Su verəndə ağaclarının yarpaqları,
Şirin-şirin meyvəsi, barı,
pıçıldayıb ibadət edəcək sənə,
Həyətinin daşı torpağı adət edəcək sənə.
Gözəl nemətlər yaradacaq
ətrini dəmət edəcək sənə.
Bu həyətin yaradanı sənsən.
Səni sahib sayan mal-qara,
sənə yalan deməz.
Sənin atın
heç sənin padşahına da
yalman verməz.
Sən də etibarlı atı,
Həyəti qoruyan iti,
Yumurta yaradan toyuğu,
Süd yaradan inəyi,
daha nəyi, nəyi...
Yaxından izləyirsən
Daha çox əzizləyirsən.
Hər ayağa gələn ayaqqabı –
– Minişgil yabı,
Banlayan toyuq,
Hamıya yaltaqlanan köpək,

Ağız artığı yeyir,
bir də kötək.
Özümüzə kötək dəyəndə,
Tale bizi döyəndə.
Günahkar sayırıq
qonşunu, milləti,
rəhbəri, dövləti.
Bərk ağrıyanda yarası
Allaha da olur ası,
özü heç nə yaratmayan insan
Özün də heç nə olursan.

* * *

Evim, xanımım, uşağım var,
Öz pəncərəm
pəncərəmdə öz işığım var,
Qəlbimdə bir sonsuz səhra var,

Ruhum o səhrada Məcnundu,
Leylinin adı gizli.
Bu eşqin odu gizli-gizli,
Qara saçlarımı yandırdı,
ağ külə döndərdi.
Günlərimi ilə döndərdi.
Ömrüm birdi,
yaşadığım başqa-başqa
iki həyatdı.
Ruhum qəlbimdəki səhrada
Məcnundu,
Leylim İbni Səlamı da aldatdı, atdı.
Evim, xanımım, uşağım var,
Öz pəncərəm,
pəncərəmdə öz işığım var
Hələ məzarımın da yerini
indidən bilirəm,

gəlirəm, gəlirəm...
Yazıq Məcnun ruhum
gecə-gündüz ürəyimin içindən
qapımı döyür.
Ağlayır, gülür, yalvarır, söyür.
Kainat dediyimiz
Allah yaratdığı bu bağın
hər kəsə yaxından-yaxın.
Hər kəsin ürəyində,
beynində pıçıldayan
Allahın səsidir.
Yaranan gündən
səndə Allah nuru olur.
O yaşadır səni həyatda.
O nurun adına ruh da deyirlər,
duyğu da,
altıncı hissiyyat da.
Aləmlərin ən uzaq nöqtəsindən
dayanıb sənə baxır Allah.
heç kəsi Allahsız qoymur,
heç kəsi tək buraxmır Allah.
Bir zərrə Allah nuru var
hər kəsdə
yaşayan da, yaradan da odur.
Allahın Adəmə üfürdüyü nur
bütün canlıları qızdırır,
o nurun bir zərrə odu.
Bu odun min bir adı var.
Amma hər şeyin canında
Allah odu var
yanan ocağın odu
yanmamışdan harda idi?
Kül olandan sonra
hara yox oldu?
Ürəyimin başındakı
odsuz, ocaqsız daimi hərarət,

Canımdakı hürriyyət,
Beynimə düşən niyyət.
Bu fikirləri beynimə salan
Hərdən məni məndən alan
Bəs kimdi?
Mən başqa bir şeyəm
ruhumdakı hökm
başqa bir hökmdü.

* * *

Keçib gəlmişəm,
Ulduzlar arasındakı uzaq bir yolu,
Mavi şəhralar keçmişəm
sükutla dolu.
Adəm cənnətdən qovulandan
Zamandan zamana keçirəm.
Pərvanələr kimi
günəşdən günəşə uçuram.
Biz gün işığına
yetişirik,
bişirik,
qovruluruq.
Deyəsən, hər birimiz
doğulanda cənnətdən qovuluruq.
Bəlkə cənnət yaratmağa gəlmişik,
gələcək illərə.
Gələcəkdə gələcək,
imanı kamillərə.
Bəlkə cəhənnəm bu dünyadı.
Özümüzdəndi odunu, odu,
Özünsən çömçə bulayan,
od qalayan,
Özün də bala-bala yan,
Yan bala, yan!
Həmişə keçmir zor, bala yan!

Bəlkə də insan olardın,
Oddan və qandan başqa,
bir şey görsən,
bir şey tanısan,
Bura cəhənnəmsə
sən Allahın,
bura qovduğu şeytanısan.
Yandır, yan, bala yan!

* * *

Tavandan yuxarıda insan,
Döşəmədən aşağıda insan,
Divarların arxasında insan.
Evdə oğlun, qızın arvadın insan.
Özünün də adın insan.
Özün də köks qəfəsinin içində
tək tənha olasan.
Bax bu böyük dərddi.
Dərdi dərd yanına qoyub
kiçiltmək də bir adətdi.
Allahın dərdi daha böyükdü.
Onun dərdi kainata yükdü.
Ondan aşağıda
ondan yuxarıda Allah yoxdu.
Sevəni, aşiqi çoxdu,
sevgilisi, uşağı yoxdu.
Keçmişi, bu günü, gələcəyi yoxdu.
Doğulduğu, öləcəyi günü yoxdu.
Yaratdıqları acgözdü,
özünün gözü həmişə toxdu.
Aləmləri yaşadır eşqinin odu,
Əvvəllindən tək tənhadı.
tənhalıq bütün dərdlərin
sərhədini aşır.
Tənhalıq bəlkə elə təkcə

Allaha yaraşır.
O tək-tənhadı, yalqız deyil.
O boyda təkliyə dərd demək
bəlkə heç düz deyil,
Özü təkdi
Amma əkdiyini cüt əkdi,
Yaratdığını cüt yaratdı,
Kainata dağıtdı,
səyyarələrə atdı.
Taleyini də yazdı
ovcuna, alnına,
Ağıl adlı olmazına, olanına.
Həyat verdiyinə ölum də verib.
İkisini də bir əlində verib.
Deyib özün bilərsən
nə çəkdirsən, nə çəksən,
Amma mən deyən ölümə
özün gələcəksən.
Ölümsüz bir Allahdı,
Ölümsüz olan təkdi, haqdı.
Bilirdin öləcək atan, anan,
Bu həqiqəti qanırdın,
qanırdın, həm də inanırdın.
heç nə qanmayan, hər şeyi qanan,
Bilirdin öləcək bacın, qardaşın,
Özün dünyanın xaqanı olsan da,
Bir gün ölüm ayağına
əyiləcək başın.
Bilirdin,
bilə-bilə dünyaya gəlirdin,
Onda dərd sözü nədi?
Ölüm hamının bildiyi
adi həqiqətdi.
Bəs dərdin özü nədi?
Tez ölür?
Gec ölür?

Onu da Allah bilir.
Yaradanla bu barədə söz olmayıb.
Aramızda müqaviləmiz olmayıb.
İnsan! Axı nə düz olmayıb!
Bir əzizin öləndə
Böyük dərdim var deyib,
Özünü içəridən
Qabıq, qabıq soğan kimi soyursan.
Hamının gözünü yaşarda-yaşarda,
Hamıdan əziz olan Allahı
haqsız sayırsan.
Tutaq ki, haqlısan,
Nə olar soyuyarsan bir az ağlasan,
Amma gərək yanmağın yandırmasın
işıq olsun.
Yanmağın da insan ömrünə yaraşıq olsun.
Yanırsan şam kimi yan,
Batan günəş kimi, düşən axşam kimi yan.
Bəlkə elə bu da o tək-tənhanın
Qurduğu oyundu, əyləncədi.
Onun mətləbi çox böyükdü,
Həqiqəti görünməzdi,
zərifdi, incədi.
Bu dünyaya gəldiyimiz
yolu unutmuşuq.
Bilmirik burdan hayana üz tutmuşuq.
Əlimizdə əvvəli sonu olmayan
yarımçıq bir yazı...
Soruşmaq ayıb olmasın
biz nədən narazıyıq,
nədən razı?!

* * *

Atam getdi,
Məndən kiçik qardaşım getdi.

Neçə dostum, yoldaşım getdi
Bu günlərdə uçdu uçmaq öyrədir.
Mən ayağı yerə bağlı insanam,
İndi inanmışam,
indi xeyli ürəklənmişəm.
Sizlər uçub getdiyiniz budağa,
indi mən də enmişəm.

* * *

Kərtənkələ sülaləsindən biri,
Allaha yalvardı ki,
məni qaytar geri.
Arvadlı, kişili,
erkəkli, dişili,
ikimizi bir canda yarat.
Onda biz çox yaşayarıq qat-qat.
Nə Leyli Məcnun məhəbbətini,
Nə də etibarsızlığın nifrətini,
vermə mənə.
O artıq əzabları
rəva görmə mənə.
Balam da bir olsun,
bir olsun bəbir olsun,
Mənə dəxli olmasın
Od olsun, ya şir olsun.
Deyirlər yer üzündə
Bir növ kərtənkələdir,
Övladı öz ömrünə
Qurulmuş bir tələdir.
Nə erkəkdir, nə dişi,
Hissiz, duyğusuz, işsiz,
Yatıb durmaqdı işi.
Ömrünün sonlarında,
Qarnında maya olur
Mayası bala olur.

Canına bəla olur.
Ananın qarnında,
Açılır buta kimi,
Ananı içindən yeyir,
Yeyir yumurta kimi.
Yeyir, yeyir ananı,
Canını alanacan.
Bala yeyir ananı,
Qabığı qalanacan.
Sonra qabığı deşib,
Çölə üz qoyur bala,
Çönüb baxmır da dala.
Qarşıda anasının,
Taleyi gözlər onu,
Ana-bala gedirlər,
Bir-birinin yolunu.
Onu görk yaradıbdı,
Görk də yaşadır Allah.
Onu axtarmaq üçün
Çölə-düzə düşməyin.
Anasını pis günə
qoyan oğula, qıza bax.
Olan-olmazın alır,
Varını satır gedir,
Ananı, ya atanı,
Qocaldır, atır gedir.
Ata-ananı atır,
Ya qocalar evinə,
ya tale umuduna.
Ata-analar yanır,
Yanır övlad oduna.
Kərtənkələ axtarma,
Dönər sənə deyər ki,
Nə gəzirsən, ay axmaq
Səni qoca yaşında
atan övladına bax.

* * *

Ey aləmi yaradan,
Nurunla qızınır kainat,
Bir zərrə nurun ruh olur,
Həyat verir, həyat.
Bu aləmdə milyonlarla yer kürəsi var,
hamısında da canlı səsi var.
hər canlıda Allah zərrəsi var.
Adı ruhdu.
Adəmin Həvvanın soyuq canına,
Allahın üfürdüyü odu – ruhdu.
Sonra da onları atdı yer üzünə,
Yeni bir təsərrüfat yaratdı özünə.
Adəmlə Həvva örədi, törədi,
Altı milyardı keçir indi.
İki zərrə ruh vermişdi,
Milyonlarla ruh içir indi.
Kainatda yer kürəsi,
Milyonlardan bir həyatdı,
tullantısız bir təsərrüfatdı,
özü-özünü nizamlamağı var.
Yaradanın kainat adlı bir bağı var.
Səyyarələr arasında,
Həmişə qaçhaqaçdı-qovhaqovdu,
Allah cənnətdə adəmlər, həvvalar
yaratdı.
Sonra səyyarələrə qovdu.
İnsan da yaradanın
dediyi bir kəlmədi,
Kainatdan gəlmədi.
Doğulanda xəyal adlı
əlvan qanadları olur.
Mələk kimi görünməz yaranır.
Nur kimi təmiz doğulur.
Xəyalı qanadlarını açır.

Yuxularında uçur, uçur,
Yer nemətlərini yedikcə,
Nemətinə şükür, ya rəbb, dedikcə
Kainat səyyarəyə parçalanır.
Səyyarə vətənə,
vətən şəhərə, kəndə, həyətə,
həyət toyuğa, mala,
ata, itə parçalanır.
Xəyalında uçan insanın,
qanadları qayçılanır.
Bal arısı kimi
gecə-gündüz çalışırıq,
İşləyirik, vuruşuruq,
küsürük, barışırıq.
Torpaqda nə varsa,
dadlı, ləzətli, yaraşıqlı,
işıqlı.
Yığıb doldururuq,
bədənimizə, canımıza,
gödənimizə,
boyumuza, enimizə.
Bədənimiz dəyib yetişəndə,
sapımız, saplağımız,
qırılıb biz düşəndə.
Düşürük torpağın açılmış ağzına.
Adı çoxdu
məzar da, qəbir də deyirlər ona.
Özü də əzizlərin bükür gətirir səni.
Deyir cənab torpaq buyur götür,
Nuş olsun,
əzizlərin də üstün örtür,
torpaqlayır.
Sonra da oturub ağlayır.
O yaradan kişi
Gör nə məharətlə qurub firmanı.
Necə məharətlə gördürür işi.

Bir zərrə ruh qoyur cana.
Bədən çalışır, böyüyür, şişir,
Sonra Allah öz zərrəsini alır.
Bədəni yetişmiş meyvə kimi,
Torpağın açılmış ağzına salır.
Elədi haqdı,
Amma unutma ki,
səni də yaradan Allahdı.
Ruh dediyin zərrə də onundu.
Tale dediyin ömür də.
Ölüm dediyin sonuncu əmr də.
Bir də ömürdən əvvəl,
ömürdən sonra,
bir də...

* * *

Leyli Məcnunlar dünyada olanda
Yaradana Məhəbbət,
qalardı ikinci planda.
Yaradan özüdür canı, məhəbbəti,
verən də, alan da.
Ona məhəbbətdən böyüyü,
məntiqsizdi, yalandı.
Allahın verdiyi ruh olmasa,
o hansı məhəbbətdi.
İnsan ruhsuz bir parça ətdi,
sonra da bir ovuc torpaqdı.
Allah yaratdığı əfsanəyə baxdı,
Dedi ki, əlimin altındakı gildi,
torpaqdı,
Adəmlə Həvvanı gildən yoğurdu.
Duz vurdu, su vurdu, qurdu,
yaratdı.
Yaxşı bilirsiniz bir-birinizin
tamın

Əlbət ki, şiti var, duzlusu var adamın.
Onları da tamahı aldatdı.
Oğurluq yedilər,
Onları cənnətdən,
Allah yer üzünə atdı.
İnsan örədi, artdı.
Yarımız haqlıyıq,
yarımız haqsız,
Allahlı,
Allahsız.
Ruhumuz Allahdandır,
Adəmdən, Həvvadan
oğurluq var qanımızda.
Birində bir az çox,
birində bir az az.
Bizdən Leyli Məcnun olmaz.
Tamah şeytandı, bizimlə əkizdi.
Ruhumuz Allahdandı, təmizdi.
Böyük təsəllimiz budur.
Bizi də Allah yaradıb,
Ona öz yaratdığı əzizdi.
Kainatda ulduzların karvanı
öz köçündədir.
Biz də bu qaranlıqda işıldaquşlarıq.
Hər kəsin düşməni öz içindədi,
adı tamahdı, iblisdi,
Özümüzə qalib gələk
olaq mələk.
Leylinin Məcnunun,
oğlunu, qızını,
dünyaya gətirək.
Əfsanəni bitirək.

MÜNDƏRİCAT

Fikrət Qoca təsəllisi 4
Müəllifdən 12

ŞEİRLƏR

Xirosima 15
Azəriyəm 16
Üçüncü adam 16
Mən kiməm 18
Şair ölümünə mən inanmıram 18
Səhər 20
Ağrı 21
Axşam bütün yollar 22
Gözünüzə su verin 23
İnsanam 23
Mənimdir 24
Dünən biri mənə yalan deyirdi 24
Arvad sözünə baxan 24
Xəstə və həkim 25
Evim – avtobuslar 25
Özünüzə kömək edin 25
Kamçatka vulkanları 26
Qorxmuram və qorxuram 26
Heç açmayaq bu sirri 26
Yer kürəsi fırlanır 26
Səkilər 27
İnfarkt 27
Baxıb uzaqdakı xatirələrə 28
Xəncər kəsmir qınını 28
Qanundan kənar 28
Ulduzlara doğru yürüş 28
Gecə yaman uzundur 29
Bu gün xoşbəxtəm 29
Gecənin nəğməsi 30
Quzu 31
Hardasa, nə vaxt 32
Qara geyinmə 33
Qara dəniz 34

Günah yoldadır 35
Dənizdə ay çimməndə 35
Balıqçıyam 36
Mənim məsləkim 37
Payız 37
Yaşamaq eşqinə, həyat eşqinə 38
Dilin bəlası 38
Kömək 38
Xəzər 39
Bir vaxt 40
Vals 40
Çiçəklər 41
Qızıma 42
Papiros çəkirəm 43
Ümid 44
Yaman dili gileyliyəm ömürdən 44
Qurbağa və mən 45
Hünərin var, bala böyüt 45
Dənizdə susuz 46
Təvazökar 46
Qaraçı qız 47
Günortadan sonra duran 47
Rəqqasə 48
Heç ağlıma gəlməyib 49
Ölüm-dirim arası 49
Kuba leysanlarında 50
Havana gecələri 51
Könlümə düşdün 51
Ərəb qızına 52
Dədə Qorqud 54
Yoxdur 54
Yarımçıq iş 55
Ürəklə 55
Yapışmaz 56
Qara rəng 57
Üzü o yana 57
Xoş gördük, İnsan 58
Səni gördüm bir bayatı çağırdım 59
İnsan 59
Gəlin 60
Başa düşdüm 60
Kökdən düşmə 60

Qaranlıq adam 61
Xoş görmüşük 62
Ömrün yükü 63
Satıram 64
Sükut səs salma 65
Ərköyün 65
Qürbətdəki həmvətənlərimə 66
Ağlama 66
Təpər istəyir 67
Risk 67
Ehey dayan! 69
Yaxşi ki, gələcək var 71
Xalq 71
Ağlama 72
Acgöz arvad 72
Ağlayar 73
Quq-quq quşu 73
Dözüm ver 74
Şaxta kəsir, qar çırpılır üzümə 75
Görüşə gələnlərə 76
Neyləsin 77
Həmişə cavanlara 77
Gözəl dərd 78
Güllərin nə günahı 78
Qoşma 79
Təslim oldum 80
Qalx ayağa 81
Yükümü çəkirəm 82
Enən deyiləm 83
Qurtarsın 83
Qadın 84
Budur 84
Biz gəldik üz-üzə, qərara gəldik 85
Dözürük 85
Xəbərin yoxdu 86
Dayandı 88
Görəndə... Görməyəndə 89
Sənsiz 90
Gileyli 90
Məhəbbət 91
Gizli sevgi 91
Sənin hökmün 92

Unutdum ... 92
İnsan qızı ... 94
Yadıma sən düşən zaman ... 95
Sən deyən olsun ... 96
Dünyanı sevindir ... 96
İnanma ... 97
Qınama ... 98
Əgər olmasaydın ... 98
İlk bahar ... 99
Torpağın nəğməsi ... 100
Gəl bir nəğmə oxuyaq ... 100
Vərdiş ... 101
Keçib gedəcək ... 102
Ehtiyac ... 103
Balalarıma ... 104
Biz gedərik, yaşıdlarım ... 104
Yaşayacaqdı ... 105
Nə vaxt? ... 107
A dünya! ... 107
Qara Qarayevin əziz xatirəsinə ... 108
Cavid gəlib, aç qoynunu ... 109
Bilmərəm ... 110
Keçib gedəcək ... 111
Gülün gözəlliyi ... 111
Həmsöhbət ... 112
Yazıq Musa ... 112
Şahmat ... 113
Bəsdir ... 113
Xoş gördük ... 114
İş belə düşdü ... 115
Yarpaqlar quşlara qoşulub gedib ... 116
Balta səsi ... 116
Ağlayırmı görəsən ... 117
Gözlərim ... 117
Ağaclar ... 118
Əsgər məktubu ... 119
Möcüzə ... 120
Səni sevəndən ... 121
Sərhəd boyunca ... 122
Yaxşı ki ... 123
Uşaq olmaq istəmirəm ... 124
Bu gün ... 124

Salam, Rəsul Rza! ... 125
Ömür ... 126
Yağış yağacaq ... 127
Çılğın baxışların dönərdi oda ... 128
Özümlə mübahisə ... 128
Qızlar dayanarlar yollar yanında ... 129
Yol verin! ... 130
Dünya mənə tanış gəlir ... 132
Sabah bayramdı ... 133
Ölülər qorxmur ... 134
Bu da belə bir nağıldı ... 134
Dodaqların ... 135
Məni oda tullasalar ... 135
Yatmağa qorxuram ... 136
Yaş o yaş deyil ki ... 136
İkinci görüş ... 137
Vaxtında gəlirsən görüşə hər gün ... 137
Dünyada xoşbəxtlik yaşayır ... 138
Təki ürəyimdə bayramım olsun ... 139
Oğluma layla çalıram ... 139
Qatar ... 141
Təyyarədə ... 142
Rüşvətxorlar ... 143
Quru çinarın nəğməsi ... 144
Titrəmək yaraşmır insan səsinə ... 145
Yalançı Məhəmməd ... 145
Mən qanım, ya qanmayım ... 146
Ərkəc ... 147
Uzaq Şərqin üfüqlərində Cavidi xatırladım ... 148
Qranit qayalarda ... 148
Yazıq adam yoxdur! ... 149
Bildirəcək ... 150
Xəbərçi ... 151
Diktor ... 152
Leyli Məcnun rastlaşdı ... 153
Bağışlanmaz ... 154
Bir Əli vardı ... 154
Qoca ərəbin səhər namazında duası ... 156
Nazım Hikmətə ... 156
Payız ... 157
Bezmə gəl ... 157
Qayıtmaz ... 158

Şeytan balası ... 159
Vurulsun ... 160
Heyfini al ... 160
Xoşbəxtlik ... 161
Gülər, qan ağlar ... 162
İnsan xasiyyəti ... 162
Gizlənpac ... 164
Qoca ağaclar ... 165
Tut ağacı ... 166
Nənəm ... 167
Ömrün illəri ... 168
Yaşa həyat ... 170
Adi insan ... 171
Yağış ... 172
Ürəyimin heyrəti ... 173
Qalıb ... 174
Dostum Abbasın qəbir daşına ... 175
Gecələr məni ... 175
Şükürlüyük ... 176
Gəmilər ... 176
Qocalıq ... 177
Öküzlər ... 178
Mən Adəməm ... 179
Balalara ... 180
Yuxumda balıq olmuşdum ... 182
Darıxmışdım ... 184
Mingəçevir şəhərində ... 185
Payız ... 186
Kəndirbazlar ... 186
Dəli ürəyim ... 187
Dedim ... 188
Xəstəxanada ... 188
Diplomat arvadı ... 190
Zənci qız ... 191
Qoca fil ... 192
Odla su arasında ... 193
Bu qızda söz var ... 194
İşdən qayıdıram ... 195
Pələng arzusu ... 196
Su da söndürmədi heyrəti ... 197
Küçük ... 198
Gəl bölüşək ... 199

Gileylənməyir ... 200
Qarsia Lorkanın son anları ... 200
Qaçqın gəlinə ... 201
Yollar uzun, dağlar uzaq, ... 201
Bir gün köçün dönər geri, ... 202
Tənhalıq ... 202
Tənha ağac ... 203
Bir yandan da belə... ... 204
Göz yaşı deyil ... 205
Məcbur olmayaq ... 205
Sevgi gözəl bəladı ... 206
Qocalıram ... 207
Yaşayır ... 208
Yaşamışam ... 208
Təsəlli ... 209
İnsan nəğməsi ... 209
Buludlar getdi ... 210

POEMALAR

İnsan səviyyəsi ... 213
Adi həqiqətlər ... 226

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Emil Məmmədov*

Korrektor: *Ceyran Abbasova*

Yığılmağa verilmişdir 09.06.2004. Çapa imzalanmışdır 18.12.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 15,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 237.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.